Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 69
(4586) ÇƏRŞƏNBƏ, 4 APREL 2007-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan.news.az | Qiyməti 20 qəpik

# Azərbaycanda din siyasətinə həsr olunmuş beynəlxalq konfrans işə başlamışdır

AzərTAc xəbər verir ki, aprelin 3-də "Gülüstan" sarayında "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" mövzusunda beynəlxalq konfrans açılmışdır. Konfransı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi təşkil etmişdir.

Komitənin sədri Hidayət Orucov konfransı açaraq demişdir ki, 20 ölkənin nümayəndələrinin iştirak etdikləri beynəlxalq tədbirin keçirilməsi təkcə Azərbaycanda deyil, həm də bütün regionda dinlərarası münasibətlərin və dialoqların inkişafında mühüm rol oynayacaqdır.

Prezidentin İcra Aparatının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin konfrans iştirakçılarına ünvanlanmış təbrik məktubunu oxumuşdur *(məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).*

Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə vurğulamışdır ki, konfransdan məqsəd Azərbaycanın reallıqlarını öyrənmək və onları təbliğ etməkdir. Ölkəmiz tarixən dinlərin və sivilizasiyaların qovuşduğu yer olmuşdur. Azərbaycanda bir çox əsrlər boyu formalaşmış və möhkəmlənmiş dözümlülük və tolerantlıq ənənələri xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinə çevrilmişdir.




Ümummilli liderimiz Heydər Əliyevin müdrik siyasəti sayəsində ölkəmizdə dövlət və din münasibətləri təkmilləşdirilmişdir. Ulu öndər beynəlxalq dini qurumlarla əlaqələrin yaradılmasına və genişləndirilməsinə böyük əhəmiyyət verirdi. Roma Papası II İohann Pavel, Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi, bütün Gürcüstanın patriarxı II İlia onun dəvəti ilə Azərbaycana gəlmiş, burada beynəlxalq simpoziumlar keçirilmişdir. Müvafiq hüquqi baza yaradılmış, qanunvericilik beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Şeyxülislam demişdir ki, hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Ölkədə məbədlər tikilir və bərpa olunur. Bu baxımdan YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolu xüsusi vurğulanmalıdır.

Sonra çıxışlar və məruzələr dinlənilmişdir.

Konfransın açılış mərasimində Baş nazirin müavini Elçin Əfəndiyev, nazirlər, dini konfessiyaların başçıları, xarici ölkələrin səfirləri, jurnalistlər iştirak etmişlər.

Aprelin 4-də konfrans işini davam etdirəcəkdir.